

Koman Şova

## İLAN

Bu yaşım da məni
digərləri kimi
uddu
bir gecənin içində...

İndi bu İlanın içində
çox rahatam,
və intizarla
nə baş verəcəyini
gözləyirəm...

## ƏGƏR MƏN...

Əgər məni əlavə etsələr
hər hansı bir ağaca,
onunla bir yol taparıq,
ev, ya bir qalaq odun, sonra od olarıq.
Əlavə edilsəm bir qadına -
Üç, dörd, ya yeddi olarıq...
Dağlarla birlikdə -
Sakitlik, sərinlik və köklər - yerə işləmiş,
Quşlarla birlikdə -
nişangah, yüksəliş, ya eniş...
Havaya qarışsam -
Yağış, ya qar olaram.
Torpağa qarışsam -
Elə torpaq olaram.

## EV

Ev tamam başqa şeydir -
İsti,
Rahat,
Əmin...
Ev tamam başqa şeydir -
Adının önəmi olmadığı,
Özün ola bildiyin.

İstəsən, uzanar, əsnəyər,
Mahnı oxuyarsan,
İstəsən, qışqırar, ya pıçıldayarsan...
Hər zaman azad olduğun yerdir ev.
İstəsən, bütün dünyanı unudub fit çalarsan.
İstəsən, inildəyər,
İstəsən, bağırarsan.
Nə deyirsiz deyin,
Başqa şeydir ev...

## CAZİBƏLƏR

Səhərdən axşamadək
özümdə-sözümdə olmuram...
Hətta çərşənbə axşamındakından da betər,
Lap sənin mənə
"özündə deyilsən" dediyin vaxtlardan da pis.
Səhər -
yuxu ilə zəlzələ arasındakı zamanda
bədənim də mənimki deyildi sanki.

Əvvəllər kimin olmuşdusa,
indi də onundur bədənim.
Və mən
təzə paltar kimi,
ürkək-ürkək gəzdirirəm onu.
Bu qədər cazibənin yanından ötürəm,
onların enerji və istəyinin mahiyyəti
cərəyan vurmuş yuxuların
nüvələri ilə qidalanır.
Hər zaman başqa, hər zaman yeni...
Qeyri-sabitlikləri də xoşdur.
dumanın çənə qarışdığı kimi,
son yuxumda
qarışırlar bir-birlərinə...

## NƏ ZAMAN Kİ HEÇ KİM...

Nə zaman ki inanmayacaq heç kim,
tək sən inanmalısan.
Nə zaman ki bacarmayacaq heç kim,
tək sən bacarmalısan.
Heç kim güvənməyəndə daha,
tək sən güvənməlisən.
Heç kim dözmək istəməyəndə daha,
tək sən inad etməlisən.
Hər kəs üçün dünya alt-üst olarkən,
yenidən başlamalısan hər şeyi -
bir sübh çağı
heç nə olmamış kimi... Sən!

## QIZIL ULDUZ

Hər dəfə
Səni kimsə səsləsə,
Dayanmağa məcbur deyilsən.
Hətta adınla çağırsalar belə,
Səbr et, tələsik cavab vermə -
Səsləyən şər də ola bilər...

İşıqforda da
dayanmağa məcbur deyilsən
gecə saatlarında.

Qoy qaçsınlar arxanca!
Qoy danışsınlar səndən,
hirslənsinlər
tuta bilmədikləri üçün.
Düz xətlə qaçsan,
hədəfi olarsan kimlərinsə.
Necə xizək sürdüyünü sal yada,
səkə-səkə get.
Qaç, gizlən qarlı buludların arasında.
Bakalavr papağını cibinə qoy.
Azadlıqdır ən önəmlisi!
Maralın alnındakı qızıl ulduz kimi,
Qoy səninlə olsun azadlıq da.

## UĞUR

İstəmir, istəməsin.
Qorxusunu ciblərinə qoy,
dəli et onu,
sıxışdır qapının arasında.

Yenə də istəməsə,
daşa tut - quş kimi,
qoy mütləq sənin olsun.

Uğur
məcburiyyət sevər,
aranmağı sevər.

Buz dağları arasında
axtar onu.
Əgər varsa -
sənin üçün var olsun!

## ANA

Sən hər zaman uzaq oldun məndən...
Ardımca kölgə kimi dolaşmaqdan,
mənimlə söhbət etməkdən,
oynamaqdansa -
özünə həsrət qoydun,
səsim də batdı susmaqdan.
Gecələr
səni eşidirəm sanki,
bir dua kimi gəlib çatır mənə fikirlərin.
Amma istisini duymuram bədəninin.
Bu şaxtalı diyarda
məğlub olmuş kimiyəm...
Ana!

## BƏLƏDÇİ QADIN

Mən onun ardınca getdim -
meşədə hər ağacın,
hər daşın,
hər bulağın yerini bilən qadının.
Onu tapdığıma sevindim,
Və biz işığı itirməməkçün tələsdik.
"Onunla azmaram", - deyə düşündüm.
Bir müddət sonra, artıq göz-gözü görmürdü,
amma biz hələ də
meşənin dərinliklərində idik.
Yolunu itirmiş ayaqlarımız
bir-birinə dolaşırdı.
Gah yıxılır, gah çuxura düşür,
gah da uçuruma yuvarlanırdıq...
Bələdçimlə bir-birimizə dəyir,
ağaclara ilişir, daşlara çırpılırdıq.
Ətrafda isə: yırtıcıların, bayquşların səsi,
kölgələr...
Qorxudan onun əlindən tutdum, -
necə də soyuq və yad idi.
Üşəndim...

## ŞİR BALASI KİMİ

Sol əlim quruyub,
elə bil Roma meydanında
təsadüfən itirdiyim qadın
lənətləyib məni.

Gümanımı ört-basdır etmək istəyən
soyuq, qumlu-palçıqlı sözlərdən
dişlərim ağrıyır.
Nəfsimiz
kalsium artıqlığından parıldayan dişlərini qıcadıb,
şir balası kimi
can əti istəyir.

Ah, Həvva dükanının aynasında
öz əksinə təəccüblə baxan qızların saçı
dalğa-dalğa
çiyinlərinə tökülüb...

Gənc bədənlərə
şəfəq fidanları əkən bahar
nilufər gülünün ləçəklərində,
ağ və sarı çiçəklərin gülüşündə,
yoldan keçənlərin gözlərində
parlayır...

## DOSTLUQ

Mən və qış!
Uşaqlıqda
qar üstündə yuvarlanıb
yanaqlarımız donarkən tanış olmuşuq.

Mən və qış!
iki qaradinməz dost,
Müqəddəs Anna gölünün sahilində
üz-üzəyik.

Yaraşırıq bir-birimizə.
boyumuz da birdir,
həyatımız da.

Onun görüşündən
rəngim-ruhum avazımış qayıdıram.
Səhəri gün,
bəlkə də, üç gün sonra,
bəzən daha da gec...

## SÜKUT VƏ SƏS-KÜY

Necə də yaxşı, necə də səliqəli -
qırmızılar içində uyumuşkən
günahsız və məğlub.
Məhrumiyyətlər içində bir sərsəri.
Elə hüzurludur ki,
poeziya belə aciz qalır qarşısında,
darmadağın olur.
Həyat eşqi sönmüş gözlərində,
çəpərlərdən o üzdə və daha uzaqlarda
görünmür heç nə.

O gedir, həmişə gedir...
Və sən həmişə səsləyirsən onu,
o da heç vaxt qayıtmır -
nə könlü, nə ruhu ilə,
nə də cismani...

O bağlar uzaqdır sənin evindən,
uzaqdır səs-küydən.
Sənsə
bu tozlu və münaqişəli məkanda
onu səsləyirsən,
Hey səsləyirsən...
Səssizcə...

## YUXULARIMDAKI MƏXLUQ

Əvvəllər yox idi indiki mən.
Sanki başqa bir məxluq var idi əvvəllər,
hansı ki yoxdur artıq.

Aldığım zərbədən sonra,
otların arasında
ağ-ağ tellər görünməyə başlamışdı.

Unutmağa başladığım
o məxluqun ardınca
qaçırdım...

O da vardı yuxumda -
həyatda gördüyüm qadın.
Varlığını bildiyim yerdə
vardı...
Lakin qarşısına çıxmaq üçün
kifayət qədər deyildi yaşım.

**Tərcümə edən:**
**Afaq Şıxlı**